


İnqilabaqədərki demokratik mətbuatda geniş təcrübə toplamış Ə.Əzimzadə "Molla Nəsrəddin" jurnalının baş rəssamı kimi onun bədii qrafik simasını müəyyən edirdi. Jurnalda əsas yer məhz onun rəsm və karikaturalarına ayrılırdı. 20-ci illərin sonu və 30-cu illərin əvvələrində Ə.Əzimzadə respublikada ilk professional rəssam-jurnalist olub, mətbuatda yüzlərlə materialın müəllifi kimi çıxış etmişdi.

# Ə.Əzimzadə və "Molla Nəsrəddin" jurnalı

## Rəssamın 1922-1931-ci illərdə yaratdığı satirik rəsmlər və karikaturalar haqqında

Məhz bu materiallar əsasında Ə.Əzimzadə haqda, jurnal rəsmlərinin əvəzsiz ustadı, dini mövhumat və antiimperialist satirik karikaturaların mükəmməl sənətkarı kimi fikir söyləmək mümkündür.

Rəssamın çoxcəhətli yaradıcılığı ilk növbədə Azərbaycan təsviri sənətinin, realist jurnal qrafikasının inkişafının xarakterik cəhətlərini gur şəkildə əks etdirməsinə görə maraqlıdır. İfadəli xətti-ştrix üslubuna ustalıqla yiyələnmiş rəssam, həmçinin böyük həyat müşahidələrinə malik olduğundan onun çəkdiyi rəsmlər canlı, ifadəli, həmçinin düşündürücü olaraq acı gülüş doğururdu. Məhz bu cəhətlər, Ə.Əzimzadəyə "Molla Nəsrəddin" jurnalının səhifələrində onlarla ümumiləşdirilmiş satirik tiplər və obrazlar yaratmağa imkan vermişdir. Aparıcı karikaturaçı rəssamın orijinal və kəsərli sənəti, Azərbaycan qrafikasının bu janrında realistik üslubun formalaşmasında böyük rol oynamışdı.

"Molla Nəsrəddin" jurnalında Ə.Əzimzadənin uzunmüddətli yaradıcılıq yolu, təsviri publisistika sahəsində rəssamın əldə etdiyi bədii nailiyyətlər onunla əhəmiyyətlidir ki, onlar Azərbaycan jurnal sənətinin rəsm və karikatura sahəsində realizmin inkişafının xarakterik tərəflərini və özünəməxsus cəhətlərini əks etdirirdi.

Əzim Əzimzadə 1922-1931-ci illər "Molla Nəsrəddin" jurnalında müxtəlif mövzularda - istər beynəlxalq aləmdə baş verən siyasi mövzulu, istər Sovet dövrü daha da aktual olan dini mövhumat mövzusunda, istər məişət mövzulu karikaturaları ilə çıxış edirdi.

Ə.Əzimzadə 1922-1931-ci illər ərzində jurnalın tapşırığı ilə 1500-ə yaxın karikatura çəkmişdir. Müəllifi olduğu satirik rəsmlərdə və karikaturalarda rəssam ölkənin daxili və xarici düşmənlərini ifşa edir, dövlət müəssisələrində və ictimai təşkilatlarda öz vəzifəsinin öhdəsindən gəlməyən məmurları, bürokratları, dövlət qulluqçularını tənqid edir, xalqı sayıq olmağa çağırırdı. Jurnalda dərc olunan karikaturalarda yeni qurulmuş Sovet dövlətini məhv etməyə çalışan imperialist qüvvələri, onların qəsbkarlıq siyasəti ifşa olunur, Avropa və Amerika imperialist dairələrinin Şərq ölkələrində -İranda, Türkiyədə, Əfqanıstanda, Çində, Hindistanda yürütdükləri müstəmləkəçilik siyasətini kəskin satira atəşinə tuturdu. Ə.Əzimzadənin "Molla Nəsrəddin" jurnalının yeni nəşri üçün çəkdiyi ilk rəsmlərdən biri, 1922-ci ilin 2-ci nömrəsində çap edilən "Azərbəyim" rəsmidir. Azərbaycanın sərvətlərini, xüsusilə Bakı neftini yenidən ələ keçirmək xəyalında olan xarici inhisarçılar bu karikaturada kəskin ifşa edilir. Bu rəsm jurnalın əsas ideyasının, siyasi xəttinin göstəricisi kimi qiymətləndirilə bilər.

Sözsüz anlaşılan bu təsvirdə, milli geyimdə təsvir edilmiş azəri qızının surəti diqqəti cəlb edir. Arxa plandan boylanıb, bu gözələ "məhəbbət" izhar edən dörd kişi (amerikalı, ingilis, fransız və italyan) isə xarici neft maqnatlarına işarədir. Yadelli "sevgililər"in hiyləsinə qarşı rəssam, Azərbəyimə arxa duran fəhlə-kəndlilərin inhisarçılara yumruq göstərməsini təsvir etmişdir. Azəri qızının təmkinli baxışları, onun nəhayət öz taleyini həll etmək imkanına malik olması və yadelli fitnəkarlara qarşı xalq qüvvəsinə arxalanması rəssam tərəfindən ifadəli şəkildə təsvir edilmişdir. Kompozisiya baxımından bitkin və dolğun həll edilən və ciddi siyasi məzmun daşıyan rəsmdə,müəllif böyük məna yükünə malik olan bir məsələyə toxunmuşdur. Rəsmin altında izahedici mətn olmamasına baxmayaraq jurnalı əlinə alan oxucu, rəssamın nəyə eyham vurmasını çox gözəl başa düşür.

Daha sonralar çəkmiş olduğu karikaturaların birində Ə.Əzimzadə Azərbaycan neftini Avropa ölkələrinə vermək arzusunda olan mühacirlərə istehza edir. 1928-ci il "Molla Nəsrəddin" jurnalının 15-ci nömrəsində dərc olunan karikaturada Azərbaycan neft mədənlərini göz bəbəyi kimi qoruyan Bakı fəhləsi mühacirlərə deyir:

- "Lotu bambılılar, satdıq deyil!"

Bu karikaturada ideya mərkəzini müsbət surət təşkil edir. Odur ki, neft mədənlərini qoruyan Bakı fəhləsinin təsviri iri planda verilmişdir və bu təsvirdə xırda detallar fikri yayındırmır.

"Molla Nəsrəddin" üçün çəkdiyi ilk rəsmlərdən digərində beynəlxalq hadisələrə toxunan rəssam İranın mürtəce qüvvələrini hədəf etmişdir. 1922-ci ildə jurnalın 2-ci nömrəsində çap olunan karikaturada əmmaməli ruhanilər "Laməzhəblər yığıncağı" hesab etdikləri İran məclisinə qıfıl vururlar. Zahiri görkəminə görə bir-birinə oxşayan, lakin başqa-başqa tiplər kimi baxılan beş nəfər əmmaməli məclisə hədə-qorxu gəlir. Ruhanilərdən birinin əlində qıfıl, digərinin əlində dar ağacı, üçüncüsünün əlində kəndir, nəhayət axırıncıların əlində isə bıçaq və qandal təsvir olunmuşdur. Uzaqdan bu beş nəfərin hərəkətlərinə diqqət yetirən məclis üzvləri qorxu keçirirlər. Rəssam karikaturanın təsir qüvvəsini artırmaq üçün qrotesk formasına müraciət etmişdir. Bununla belə təsvirlərdə insanı eybəcər şəkildə salan heç bir cizgi yoxdur. Rəsm qüsursuzdur, fiqurlar səlis çəkilmişdir.

"Molla Nəsrəddin" jurnalının 1922-ci il 7-ci nömrəsində çap olunan, Türkiyədə baş verən inqilabi hadisələrə həsr edilmiş karikaturada Mustafa Kamalın portreti diqqəti cəlb edir. Bu karikaturanı dərc etdirməklə "Molla Nəsrəddin" yalnız Türkiyə üçün deyil, eyni zamanda digər Şərq ölkələri üçün böyük siyasi əhəmiyyət kəsb edən inqilabi hərəkata müsbət münasibət bəslədiyini, azadlıq uğrunda mübarizə aparan inqilabçı qüvvələrlə həmrəy olduğunu bildirirdi.

Karikatura ustası kimi, Ə.Əzimzadənin yaradıcılığının digər maraqlı səhifəsi beynəlxalq mövzuda çəkilmiş siyasi karikaturalardır. Rəssam-jurnalist kimi o, beynəlxalq aləmdə baş verən mühüm hadisələrə öz münasibətini bildirirdi. Bu özünəməxsus siyasi xronika, məzmun etibarilə maraqlı, forma baxımından ifadəli karikaturalarda öz əksini tapır.

"Molla Nəsrəddin" jurnalını vərəqlədikcə onun səhifələrində Ə.Əzimzadənin müəllifi olduğu beynəlxalq mövzusuna həsr edilmiş, istismarçı cəmiyyətdə əziyyət çəkən "Çin fəhlələrinə", minlərlə zəhmətkeşin edam edilməsini əks etdirən "Çində İngilis mədəniyyəti", "Çində vəziyyət" (1925), "Çində baş verən son hadisələr" (1927), ingilis müstəmləkəsinin qucağına atılan satqın Çan Kay Şinin və onun ölkədə apardığı siyasətin ifşa edilməsi mövzusunda çəkilən karikatura, Amerika və İngiltərənin simasında "İranda çıxmış "tarixi" musiqiçi" (1924), "İranın yeni çaparları", "İran neftinin daşınması" (1925) və digər bu mövzulu karikaturaları göstərmək olar. Bu karikaturalar ideyanın aktuallığı, ifadəliyi və əhəmiyyəti, həmçinin icra səviyyəsi baxımından fərqlənir.

Beynəlxalq hadisələrə toxunan bu karikaturalarla "Molla Nəsrəddin" öz oxucularına əvvəllər olduğu kimi indi də imperialist dairələrinin fitnəkarlığına göz yummayacağını, xalq kütlələrinə irticaya qarşı mübarizədə dəstək olacağını bildirirdi. Əlbəttə, dövrü üçün siyasi yük daşıyan, bu vacib və əhəmiyyətli işdə Ə.Əzimzadənin əməyi və xidmətləri danılmazdır.

1922-ci ilin axırına kimi "Molla Nəsrəddin" həftədə bir dəfə çap olunurdu. Bu zaman jurnalın ədəbi-publisist materialları, birinci və axırıncı səhifələrdə verilən rəngli karikaturalar, beynəlxalq hadisələrlə yanaşı daxili məsələlərə də toxunurdu. Bu mövzular sırasında əsas yerlərdən birini öz kəskinliyi və radikallığı ilə inqilabaqədərki karikaturalardan hiss olunacaq dərəcədə seçilən dini fanatizm, mövhumat, köhnə adət-ənənələrlə barışmaz mübarizə tuturdu. Böyük ədib Cəlil Məmmədquluzadə Ə.Əzimzadənin bu sahədə əvəzsiz xidmətlərini yüksək

qiymətləndirərək deyirdi: "Şmerlinq və Rotterdən fərqli olaraq Əzim Əzimzadə üçün Azərbaycan mühitində milli xarakterlərin, tiplərin daxili aləminə nüfuz etmək çox asan idi. Şmerlinq və Rotterə çəkdikləri karikaturaların mövzularını mən verdiyim halda, Ə.Əzimzadə şəkillərin mövzusunu özü təklif edirdi. Dinə və mövhumata qarşı yönəldilmiş satirik rəsmlərin bir çoxu Ə.Əzimzadənin şəxsi müşahidələri nəticəsində yaradılmışdır. Məsələn, dindar müsəlmanların Məşəd və Kərbəla ziyarətlərinə, ramazan və məhərrəm aylarına və s. həsr olunmuş şəkillərin çoxunu rəssam sərbəst işləmişdir."

Həqiqətən də Ə.Əzimzadə yaradıcılığı üçün yaxın olan və Sovet dövründə çox aktual hesab edilən mövzulardan biri də dini mövhumat əleyhinə çəkilən karikaturalardır. Bu karikaturalar "Molla Nəsrəddin" jurnalının daimi mövzularından biri olaraq mühüm əhəmiyyətə malik idi. Rəssamın 1923-cü ildə bu mövzuda çəkdiyi karikaturalardan - "Qazaxın Qarapapaq kəndi şeyxlər üçün əsl cənnətdir", "Ramazanda mərsiyəxanın şəhər məşğuliyyəti", "Bizim tiplər", "Arazın o tərəfində və bu tərəfində olan vəziyyət", 1924-cü ildə çəkdiyi, "Gecələr insanlara mane olan səs-küy", 1925-ci ildə "İndi insanların mədəsi bu cür yeməyi qəbul etmir", "Camahat namazı", "Orucluq ayına baxıram", "Behişt mənzərələri", "Mən şeytanlığı səndən öyrənmişəm", 1928-ci ildə "Arvadımın açıq geyinməyinə razı deyiləm", "Yatmaqları yaxşıdır", 1929-cu ildə "Mədəni inkişaf nümunələrindən", "Samux dairəsində Sovet orqanları", 1931-ci ildə "Ay camaat hara gedirsiniz?" və bu kimi yüzlərlə mövhumat əleyhinə yönəlmiş əsərlərində mollalar, mərsiyəxanlar, insanların savadsızlığından istifadə edib öz çirkin əməllərini həyata keçirdən din xadimləri tənqid olunurdu.

"Molla Nəsrəddin" jurnalındakı karikaturaların süjet seçimi və onların bədii təsviri Ə.Əzimzadənin jurnal illüstrasiya sahəsindəki məharətinin özünəməxsusluğunu daha dərindən anlamağa imkan verir. Təqdim olunan əsərlərdə izlənilən yığcamlıq və konkretlik, mövzu əhatəliyi - rəssamın jurnal rəsmlərinin əsas spesifik forma keyfiyyətlərini müəyyən edir. Bu rəsmlər Ə.Əzimzadənin karikatura çapı sahəsində əldə etdiyi nailiyyətlərini bir daha təsdiqləyir. Bu sahədə böyük satirikin tükənməz istedadı və novatorluğu öz əksini tapmışdır. Parlaq, özünəməxsus yaradıcılıq fərdiliyinə malik olan xalq rəssamının yaratdığı obrazlar silsiləsi, təsvir manerası, təkrarsız qrafik dəsti-xətti onun karikaturalarını, bu sahədə çalışan başqa rəssamların əsərlərindən kəskin şəkildə fərqləndirir. Bunun əsas səbəbi Ə.Əzimzadənin oxucu-tamaşaçı kütləsinə yaxın və anlamlı olan realist təsvir üslubunda işləməsi və qrafik obrazların lakonikliyinə və ifadəliyinə böyük əhəmiyyət verilməsidir. Məhz bu özünəməxsus üslub xüsusiyyətlərinə görə Ə.Əzimzadənin karikaturaları hətta müəllifin daimi imzasının qoyulmadığı hallarda da "Molla Nəsrəddin" oxucuları tərəfindən asanlıqla tanınırdı.

Rəssamın jurnalda dərc olunan karikaturalarında əsasən ətrafda, gündəlik həyatda baş verən neqativ və mənfi hallar ön plana çəkilir, keçmişin qalıqları ilə barışmaz mübarizə aydın hiss olunurdu.

1923-cü ilin əvvəllərində Ə.Əzimzadə tərəfindən işlənib jurnala təqdim olunmuş "Rüşvətxor milis işçisi" (1923, № 12) adlı karikaturada vəzifəsindən sui istifadə edən milis işçisi tənqid olunur. Digər karikaturalarında qəsəbədə məsul vəzifə daşıyan dövlət qulluqçusunu (1923, № 17) və ya uzun-uzadı nitq söyləməklə öz vəzifəsini yerinə yetirmiş olduğunu hesab edən idarə sədrini, dövlət malına laqeyd münasibət bəsləyən boşboğaz və lovğa idarə rəhbərlərini Ə.Əzimzadə satiranın gücündən istifadə edərək açıq-aydın tənqid edirdi. Qəzalarda, kəndlərdə, hökumət idarələrində, ictimai cəmiyyətlərdə yarıtmaz iş aparan, məsul vəzifə daşımağa layiq olmayan adamları tənqid edərkən Əzimzadə bir qayda olaraq, tipik surətlər yaratmağa çalışırdı. Yuxarıda haqqında danışdığımız boşboğaz və lovğa müdir surətləri məhz belə tipik surətlərdəndir. Lovğalığa, vədəbazlığa, təsərrüfatsızlığa qarşı yönəlmiş bu rəsmlər və karikaturalar yarandığı vaxtdan 100 ilə yaxın bir müddət keçməsinə baxmayaraq yenə də aktual və müasir səslənirlər...

"Molla Nəsrəddin" də bəzən cəmiyyətdə, ətrafda baş verən hadisələri işıqlandıra biləcək, bəzən "xırda" görünə biləcək məsələlərə aid karikaturaları birinci səhifədə verməklə redaksiya dövlət idarələrinin, müvafiq təşkilatların diqqətini konkret nöqsanlara cəlb edirdi. Buna misal olaraq jurnalın 1923-cü il 27-ci nömrəsində səhifə boyu çap olunmuş bir satirik rəsmi nəzərdən keçirək. Həmin rəsmdə Ağdam rayonunun rəhbərliyi, rayon icraiyyə komitəsinin yerləşdiyi binanı uzun müddət təmir etmədiyi üçün tənqid olunurdu. Karikaturada tənqidin "rəngləri tündləşdirilib"- adamlar binaya qapıdan yox, pəncərədən daxil olurlar. Ə.Əzimzadənin məharətlə qurduğu bu kompozisiya və yüksək rəssam işi oxucunu ilk baxışdan güldürür və əlbəttə, belə "açıq" tənqiddən Ağdam İcraiyyə Komitəsi nəticə çıxarmaya bilməzdi. Şübhəsiz ki, seçilmiş tənqid forması ilə rəssam daha sərrast atəş açırdı.

Ətrafda baş verən hadisələrə həsr olunmuş, jurnalın 1922-ci il, 5-ci nömrəsində bir səhifədə iki rəsm çap edilmişdir. Vərəqin üst hissəsində yerləşdirilən rəsmdə müəllif, içərisi adamlarla dolu olan loto oynanılan yeri, aşağıdakı rəsmdə isə Bakı teatrlarından birinin boş tamaşaçı zalını təsvir etmişdi. Rəssam qısa mətndə öz fikrini belə çatdırmışdı: birinci karikaturanın altında "Bizim oyun evlərimiz", ikinci karikaturada isə "Bizim teatrlarımız" sözləri yazılmışdır.

"Molla Nəsrəddin" jurnalının 1923-cü il, 10-cu nömrəsində çap olunmuş digər bir karikaturada rəssam belə bir başlıq yerləşdirmişdir: "Leyli və Məcnun" tamaşası Batumda". Səhnədə gənc aktyorlar çıxış edirlər. Lakin bu tamaşada iştirak edən tamaşaçılar özlərini çox "qəribə" aparırlar. Tamaşa zamanı onlar səs salır, şərab içir, yerdə sürünür, sərxoşlar isə artıq yatırlar. Əynində əba olan Molla Nəsrəddin üzünü tamaşaçıya tərəf çevirərək, olduqca mənalı şəkildə gülür. Mətndən məlum olur ki, "Tamaşaçıların "əhval-ruhiyyəsi" çox yüksək olduğundan tamaşanın ikinci pərdəsi sabaha qədər təxirə salınır." Bu istehzalı qeyd, karikaturanı daha da dolğunlaşdıraraq tamamlayır. Bu canlı məişət səhnəsini, Ə.Əzimzadə nadanlıq və mədəniyyətsizlik nümunəsi kimi kəskin tənqid edir. Vərəqin yuxarı ağ hissəsindən, lokal qəhvəyi və açıq mavi rənglərdən bacarıqla istifadə edən rəssam, rəngli tuş və pero texnikasında, ştrixləmədən istifadə etməklə, fiqurların plastikasını qeyd edərək, üz ifadələrində, fiqurların hərəkət və dönüşlərində, poza və danışıq tərzlərində satirik tipajın xarakterik cəhətlərini təsvir etməyə nail olmuşdur.

Ə.Əzimzadənin 1924-cü ildə, jurnalın 6-cı nömrəsinin sonuncu səhifəsində çap edilən "Lənkəran rayonunun Boradigah kəndi" rəsmi kəskin sosial məzmuna malik olub, dramatik hərəkətlə zəngindir. Ümumiyyətlə, "Molla Nəsrəddin" jurnalında çap edilən rəsm və karikaturaların mövzusu sosial baxımdan dövrün aktual tələblərinə cavab verirdi. Ə.Əzimzadənin rəsm və karikaturları Azərbaycan jurnal qrafikasının formalaşmasını və onun spesifik özünəməxsusluğunun mürəkkəb təkamül prosesini əks etdirir.

Bütün bu sadalanan karikaturlarla yanaşı rəssam cəmiyyətdə baş verən neqativ hallara qarşı yönəlmiş yüzlərlə əsərlərin müəllifidir. Yeniliklə barışmaq istəməyən, təhsildən yayınan, qanunu pozan, öz əxlaqı, mədəniyyətsizliyi ilə müsbət Sovet insanının tələblərinə cavab verməyən bu tiplər rəssamın hədəfinə tuş gəlir. Rəssamın bürokratları, süründürməçiliklə məşğul olan dövlət qulluqçularını tənqid edən "Heç kəs bu texnikadan istifadə edə bilməz" (1923), "Kənd təsərrüfatında olan vəziyyət" (1925), "Bizim əsrin Hamleti" (1926), "Traktoru bataqlıqdan çıxartmaq daha asandır", "Görəsən bu pasportları nə vaxt bizə çatacaqlar" (1927), "Vəziyyətdən necə çıxaq?" (1929), vəzifəsinin öhdəsindən gəlməyən əhli-kef məmurları, cinayətə göz yuman polis işçilərini tənqid edən "Bakıda tətil günlərində ticarət" (1928), "Ştatın ləğv edilməsi", "Dəmir yolunda və şəhərdə milisin vəziyyəti" (1922), "Əmək birjasında" (1923), "Avtomobil bizi gəzdirməlidir", "Adambaşına bir avtomobil düşür" (1923), "Müdir qadınları" (1929).

Geriliyin, köhnəliyin və yüngül əyləncələrin tərəfdarı kimi çıxış edən, yeniliyə, təhsilə qarşı çıxan nadanları tənqid edən "Nişanlılar" (1923), "Təhsilə maraq göstərməyən müsəlman qızları" (1924), "Muzeyə gələnlər" (1928), "Adamın üzünü görə bilmirəm" (1928), "Gələn həkimdir" (1928) və s. bu kimi yüzlərlə müxtəlif mövzulu karikaturalarda rəssam həyat həqiqətlərini qabardaraq, daha çox ifadəlik və tamlıq axtarışında çıxış edir.

Adları çəkilən mövzuların və süjetlərin seçilməsi və onların bədii təfsiri Ə.Əzimzadənin jurnal illüstrasiyası xüsusiyyətlərinin özünəməxsusluğunu daha dərindən anlamağa imkan verir.

Ə.Əzimzadənin karikaturaları, özünəməxsus fərdi manera, rəssam dəsti-xətti ilə və realistik prinsiplərə əsaslanması ilə seçilir. Ə.Əzimzadənin satira və yumorunun, oxucu və tamaşaçı kütləsi tərəfindən rəğbətlə qarşılanmasının əsas səbəbi, onların asan qavranılması və realistik olması ilə izah edilə bilər.

Əzimzadənin satirik rəsmlərinə, siyasət və dini xurafat mövzularına həsr edilən karikaturalarına diqqətlə nəzər saldıqda, onun şahidi oluruq ki, rəssam axtarışlarla dolu böyük yaradıcılıq yolu yaşamışdır. Rəssam öz sənətinin bütün təsvir-ifadə vasitələrini, milli ideyanın təsdiqinə, xalqın tərəqqi və inkişafına mane olan hər nə varsa onların kəskin və ifşaedici tənqidinə yönəltmişdi.

Müstəmləkəçi və istismarçı, nadan və molla, təxribatçı və rüşvətxor kimi mənfi tiplərlə yanaşı, sadə xalq nümayəndələrinin, azadlığa çıxmış, əməkçi Azərbaycan qadınlarının müsbət obrazları da, Ə.Əzimzadə karikaturalarında əhəmiyyətli yer tutur. Satirik jurnal səhifələrində müsbət qəhrəman obrazlarının yaradılması və bu istiqamətdə yaradıcılıq işlərinin davam etdirilməsi, ciddi ideya-yaradıcılıq məsələlərinin həlli ilə bağlı idi.

"İstoriə russkoqo iskusstva" kitabının XI cildində A.A.Sidorov tamamilə düzgün qeyd edir ki, "... həqiqi satiranın yaranması, möhkəm ideya prinsipləri olmadan və müsbət qəhrəmansız mümkün deyil".

1940-cı il, mart ayında Bakıda İncəsənət muzeyində xalq rəssamı Ə.Əzimzadənin sərgisi açılmışdır. Sərgidə rəssamın 1200 əsəri nümayiş etdirilmişdir. Həmin ilin iyun ayında Azərbaycan rəssamı Ə.Əzimzadənin sərgisi Moskvada təşkil edilir. Ə.Əzimzadə ilk azərbaycanlı idi ki, fərdi sərgisi ilə Sovetlər ölkəsinin paytaxtında hesabat verirdi. SSRİ Rəssamlar İttifaqının Təşkilat Komitəsi görkəmli sənətkarın sərgisinə müstəsna əhəmiyyət vermiş, sərgi üçün paytaxtın ən gur salonlarından biri ayrılmışdır.

Moskva mətbuatında rəssamın fərdi sərgisi haqqında, onun yaradıcılığı haqqında məqalələr dərc olunmuşdur.

Sənətşünas V.Çepelev yubilyarın yaradıcılığını xarakterizə edərək, onun xidmətlərini yüksək qiymətləndirmişdir. V.Çepelev yazırdı: "Ə.Əzimzadə Azərbaycan xalqının istedadlı məişət salnaməçisidir. O, ilk növbədə böyük satirik və fitri istedada malik karikaturaçıdır. Məhz onun satirik rəsmləri incə yumorla, xalq yaradıcılığının canlı müşahidələrini əlaqəli şəkildə özündə nümayiş etdirir. Rəssamın özünəməxsus qrafik üslubu, tipik Azərbaycan xalq qrafikasının təkamülünün müasir səviyyəli qrafik us-

talığına keçməsi ilə xarakterizə edilir. Bu mənada, Ə.Əzimzadənin yaradıcılığı milli bədii ənənələrin inkişaf edərək yüksək səviyyəyə çatmasının bariz nümunəsidir".

Həmin günlərdə, rəssamın Moskvada keçirilmiş sərgisi haqqında "Вечернайа Москва" qəzeti yazırdı ki, sərgidə Azərbaycan plakatçı rəssamı və teatr tərtibatçısının akvarel, rəngli tuş və karandaşla çəkilmiş 200-dən artıq əsəri nümayiş etdirilmişdir. Moskvalı tamaşaçılar xalq rəssamının yaradıcılıq nailiyyətlərini böyük rəğbətlə qarşılayaraq, onu layiqincə qiymətləndirmişlər.

Bu gün biz tam əminliklə və qürurla deyə bilərik ki, Əzim Əzimzadə Azərbaycan jurnal qrafikasında milli realistik üslubun bünövrəsini qoymuş, Azərbaycan karikatura tarixinə öz adını qızıl hərflərlə yazmış, əvəzsiz müəllim, böyük şəxsiyyət, fədakar insan, görkəmli rəssamdır.

1980-ci ildə ulu öndərimiz Heydər Əliyevin sərəncamı ilə rəssamın 100 illik yubileyi ilə əlaqədar təşkil olunmuş təntənəli gecədə Ümummilli Liderimiz öz çıxışını bu sözlərlə tamamlamışdır:

- "Azərbaycan karikatura rəssamlıq sənətinin banisi, dahi rəssam Əzim Əzimzadə xalqın qəlbində daima yaşayacaqdır!"

● **Bayram HACIZADƏ,**
***sənətşünaslıq namizədi, dosent***

## Ədəbiyyat

1. Axundov N. "Molla Nəsrəddin" jurnalının nəşri tarixi" - Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1959.
2. Hacızadə B. Azərbaycanda karikaturanın inkişafı - Bakı, Səda, 2008.
3. Nəcəfov M. Əzim Əzimzadə - Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1973.
4. Nəcəfov M. Rəssam və zaman - Bakı, Gənclik, 1977.
5. Kataloq vıstavki proizvedeniy narodnoqo xudojnika Azerbaydjana Azimzade - Baku, 1957.
6. Kozin Ə. Azim Azimzade // "Tvorçestvo", № 1 - M., 1940.
7. Sidorov A. İstoriə russkoqo iskusstva. Ql. "Karikatura i plakat" - M., izd-vo AN SSSR, 1967.

## РЕЗЮМЕ

### Сатирические произведения и карикатуры А.Азимзаде, изданные в советский период (1922-1931-х годы) в сатирическом журнале "Молла Насреддин"

В статье рассматривается творчество первого профессионального художника-журналиста А.Азимзаде, чьи произведения, опубликованные в первые годы установления Советской власти в Азербайджане, определяли художественно-графический облик сатирического журнала "Молла Насреддин". Анализируемый материал дает основание полагать, что А.Азимзаде был незаменимым мастером сатирического рисунка, карикатуры которого были антиимпериалистической направленности и бичевали религиозный фанатизм. Многоплановое творчество художника интересно тем, что определяет характер развития реалистической журнальной графики Азербайджана.

## SUMMARY

### Satirical works and cartoons of A.Azimzadeh, issued within the soviet period (in the 1922-1931) in the satirical magazine "Molla Nasreddin"

The creative work of the first professional artist-journalist A.Azimzadeh whose works were published within the initial years of Soviet power in Azerbaijan, and which has determined the artistic and graphic image of the satirical magazine "Molla Nasreddin", is explored in this article. The analyzed material gives us a basis to suppose that A.Azimzadeh was an irreplaceable master of satirical drawings whose cartoons had an anti-imperialistic tendency and castigated religious fanaticism. Multifaceted creative work of an artist is interesting because it determines the development of the realistic graphic in the Azerbaijani magazines.